UOT 78.071.1

İmruz Əfəndiyeva
Sənətşünaslıq üzrə elmlər dokturu, professor
Əməkdar İncəsənət Xadimi
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ1014, Ş.Bədəlbəyli küçəsi 98

MUSİQİŞÜNASLIĞIMIZIN MÜASİRLİYİ – QARA QARAYEV FENOMENİNƏ YENİ BAXIŞ

Açar sözlər: *Q.Qarayev, yenilik, musiqi üslubu, melodiya, yüksək peşəkarlıq*

Dahi bəstəkarımız Qarar Qarayevin əsərləri planetimizin müxtəlif güşələrində səslənir, sevilir. Müəllif bu məqalədə bəstəkarın novatorluğunu, musiqimizə gətirdiyi yeniliyi dəqiq olaraq onun haqqında tanınmış musiqişünas-alim professor, sənətşünaslıq namizədi Könül Nəsirovanın «Мелодика Кара Караева» adlanan kitabı üzərində araşdırır.

И.Эфендиева

СОВРЕМЕННОСТЬ МУЗЫКОВЕДЕНИЯ: НОВЫЙ ВЗГЛЯД НА ФЕНОМЕН КАРА КАРАЕВА

Ключевые слова: *К.Караев, мелодия, профессионализм, новаторство, музыкальный стиль*

Творчество великого композитора нашей современности широко известно не только в Азербайджане, более того во всем мире. В данной статье новаторские черты его музыки конкретизируются, обобщаются на основе анализа книги «Мелодика Кара Караева» музыковеда, профессора, кандидата искусствоведения Кенуль Насировой.

I.Efendiyeva

THE MODERNITY OF MUSICOLOGY: A NEW VIEW AT THE PHENOMENON OF KARA KARAYEV

Key words: *Gara Garayev, melody, proficiency, innovation in our musical studies*

The works created by Gara Garayev are examples of the development, growth and Renaissance in the history of our people's culture. The said valuable factors have been deeply embodied in Konul Nasirova's work named "Gara Garayev's melodies". This article is dedicated to the fiftieth anniversary of the birth of Konul Nasirova.

"Qəlbdən böyük dağ olmaz".
Yunus Emre

Azərbaycanın musiqişünaslıq elmi böyük və zəngin,şərəfli və mürəkkəb yol keçmişdir. Dahi Ü.Hacıbəylinin publisistik yaradıcılığı və bu xüsusidə onun "Azərbaycan xalq musiqisinin əsasları" musiqi kitabşünaslarımızın masa üstüni bəzəyir.Ü.Hacıbəyli məqalələrində xalqın ruhuna doğma olan onun mənəvi-mədəni həyatını bütün genişliyi,səmimiliyi ilə əks etdirən, yad və ya yabançı ifadələrlə yadlaşdırılmış bir dildə deyil,saf ana dilində yazmış və yüksəlmişdir.

Bu yol bizim musiqişunas-alimlərimiz tərəfindən davam edilmişdir.Nəyin ki,musiqişünaslarımız bu sahədə yeni söz demişlər.

Eləcə də bəstəkarlarımız-böyuk mütəfəkkir Qara Qarayev elmi məqalələrində, publisistikasında və yaradıcılığında Ü.Hacıbəylinin ənənələrinə ehmalla yanaşaraq yeni fikir söyləmiş və eyni zamanda xalqın ruhuna yaxın olan, onun sosial-ideoloji və musiqi-mədəni həyatını peşəkarlıqla əks edərək bulaq suyu kimi saf, gözəl dildə yazmış və yaratmışdır.

Millətimizin mədəniyyət tarixində Qara müəllimin yaratdığı əsərlər-tərəqqinin, yüksəlişin, intibahın hadisəsidir. Sadaladığım bu dəyərli amillər Könül Nəsırovanın "Мелодика Кара Караева" kitabında öz dərin təcəssümini tapmışdır. Bu məqalə Könül Nəsirovanın yubileyinə - anadan olmasının 50 illiyinə həsr olunur.

Otuz ildən artıqdır ki, Könül xanım Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında müəllimlik fəaliyyətini vicdanla, inamla və yüksək peşəkarlıqla aparır və müqəddəs müəllimlik işini çox sevir.

Aydın, mənalı, poetik dildə mühazirələr oxuyur.Qəlbdən süzülən Könül xanımın sözləri, ifadələri sanki poeziyanı xatırlayır. Poeziya isə yalnız səmimi qəlbin oxuduğu nəğmədir. K.Nəsirova bir neçə monoqrafiyaların, kitabların

məqalələrin müəllifidir. Onun elmi məqalələri o cümlədən radio və televiziya çıxışları böyük şəxsiyyətlərə həsr olunur. Yada salaq: Ü.Hacıbəyli, A.Zeynallı, M.Maqomayev, Q.Qarayev, F.Əmirov, T.Quliyev, C.Cahangirov, R.Hacıyev, V.Adıgözəlov, F.Əlizadə, Əlbətdə, bu siyahını artırmaq olar. Biz xüsusi olaraq xarici ölkələrin görkəmli nümayəndələrini də bu siyahıyə əlavə etməliyik. Burada ilk növbədə Bela Bartok, Xindemit, Sönberq, Şostakoviç, Şedrin...kimi qüdrətli sənətkarların adı çəkilməlidir. Bakı Musiqi Akademiyasında Bela Bartoka həsr olunmuş tədbir keçirilirdi və K.Nəsirova "Böyük zalda" dəyərli qonaqların: ,tanınmış bəstəkarların, ifaçıların, professor-müəllim heyətinin qarşısında olduqca gözəl və maraqlı bizə mühazirə oxudu,daha doğrusu səmimi söhbət etdi. O, sanki auditoriya ilə dialoq aparırdı-onun canlı baxışları sanki sizin suallarınıza cavab verirdi.Könül xanımın söylədiyi hamımızın yaddaşına, həkk olundu, çünki bu əsərlərin bədii-texniki təhlili ilə yanaşı, istedadlı lektor maraqlı avtobioqrafik məlumatlar çatdırırdı.İnanın ki, zalda əyləşənlər olduqca diqqətlə qulaq asırdılar,çalışırdılar hər yeni məlumatı yadda saxlasınlar. Tədbirdən sonra yaxınlaşdım Könül xanıma, təbrik edərək xahiş etdim ki, həmin mühazirənin elektron variantını versin. Bakı Xoreoqrafiya Akademiyasının tələbələri də həmin gün zalda idilər, - onlara "Müasir harmoniyadan" dərs deyirəm. Maqistr tələbələrim olan magistrlar üçün B.Bartok haqqında material sözün əsl mənasında hədiyyə idi.

Ümumiyyətlə, Könül xanım "Müasir musiqi" fənnini çox maraqlı, yüksək professionallıqla aparır. Həmin bəstəkarların Bakıda olmayan klavirlərini, partituralarını digər şəhərlərdən axtarır,tapır və tələbələrinə bu haqda danışır,mürəkkəb müasir dildə yazılan əsərləri təhlil edir. Bu əsərlərin harmonik dilini, polifonik üslubunu peşəkarlıqla açır.

İndi isə yuxarıda qeyd etdiyimiz "Мелодика Кара Караева" kitabına qayıtmaq istərdim və Könül xanımın musiqişünaslığımıza gətirdiyi yenilikləri haqqında söhbət açmağı yerinə düşər.

Akademik Nizami Cəfərovun fikirlərinə, terminoloqiyasına əsaslanaraq ("Tarixin müasirliyi" "müasirliyin tarixiliyi") cəsarətlə qeyd etməliyik ki, Q.Qarayrv tarixi müasirləşdirən, müasirliyi tarixiləşdirən,millətimizi sevən, böyük şəxsiyyət olub.Tarix insana romantik enerji-ruh verir.Vətəni üçün tarixi məsuliyyətlə, inamla, idrakla və qürürla qəlbində daşıyan əsl vətəndaşdır.Ölməz sənətkar bu gündə bizimlədir.

Hər bir dinləyici dahi bəstəkarın əsərlərini dinləyərkən, tərəddüdsüz deyə bilir ki, bu, Qara Qarayevin musiqi dilidir, bu, Qara Qarayevin intonasiyasıdır, bu,Qara Qarayevin səsidir, bütövlükdə isə Azərbaycan xalqının qüdrətli səsidir.

XX əsrin təmayül və cərəyanlarına, müxtəlif məktəblərinə gözəl bələd olan, müasir kompozisiya texnikasına mükəmməl əsaslanan Q.Qarayev ən yeni yazı üsullarında peşəkarlıqla əsərlər yaradıb.

Ü.Hacıbəyli-Q.Qarayev, D.Şostakoviç–Q.Qarayev arasında varislik əla-

qələri özünü büruzə verir. Bu varisliyin təcəssümü,Q.Qarayevin qeyri-adi dahiliyi, şəxsi intellektual potensialının səviyyəsi sayəsində gözəl, ən yüksək peşəkarlıqla reallaşmışdır.

Sual oluna bilər, nə üçün bu sətirlərin müəllifi Q.Qarayev ilə əlaqədar yaradıcılığın problemlərini yada salır.Çünki Könül xanımın «Мелодика Кара Караева» adlanan monoqrafiyasında bu məsələlər və üstə gəl digər vacib problemlər öz həllini tapmışdır.İlk dəfə Azərbaycan musiqişünaslığında K. Nəsirova melos, melodiya, melodika anlayışlarının müfəssəl şəklində mənalarını açır və Qarayevin yaradıcılığında maraqlı misallar tapır.

Müəllif melodiyanı (mövzunu) harmoniya və kompozisiya strukturu ilə bağlılığını qeyd edir. Bu "ilklər", yeniliklər alimin kitabında çoxdur və biz də çalışacayıq ki, bunları üzə çıxardaq.

Ən əvvəla qeyd edək ki, monoqrafiya üç böyük hissədən və yeddi fəsildən ibarərdir.Geniş giriş bölməsində müəllif keçmiş Sovet dövründə yaşayan görkəmli alimlərin bu sahəyə gətirdiyi maraqlı töhfələrini açıqlayır. Bu baxımdan, o B.V.Asafyevin, L.A.Mazelin, N.N.Xolopovanın, Y.N.Xolopovun, M.Y.Tarakanovun, E.A.Ruçyevskayanın, E.V.Nazaykinskinin, S.H.Mahmudovanın və digərlərinin elmi-tədqiqat işlərinin xüsusiyyətlərini uğurla açır.

Bizim bir çox bəstəkarlarımız haqqında musiqişünaslarımız monoqrafiya yazarkən, həmin bəstəkarın melodiyasının xüsusiyyətlərini açır və onun bu sahəyə gətirdiyi yenilikləri qeyd edir. Q.Qarayev haqqında sanballı tədqiqat işləri yazılıb,lakin heç bir alimimiz bir nəzəriyyəçi kimi bu problemə yanaşmayıb.

Xalq musiqisinə münasibəti unikallaşdırmış və bu böyük xəzinədən istifadə təqliddən uzaq olmağı, bunun incəliklərinə varmağı tövsiyə etmiş dahi Ü.Hacıbəylinin bu problemdə tutduğu mövqe, Q.Qarayevin simasında orijinal keyfiyyətdə təzahürünü etdi.

Könül xanımın monoqrafiyasında Q.Qarayevin yaradıcılığının özünəməxsusluğu ilk növbədə bəstəkarın xalq musiqisinə olan sıx bağlılığı ilə əlaqədardır. Musiqinin bütün janrlarında bəstəkar yaratdığı "şedevrlərdə" K.Nəsirova Q.Qarayevin yaradıcılığına və xüsusilə melodik irsinə müxtəlif nəzər nöqtələrindən yanaşaraq gözəl təhlil edir.

Yuxarıda biz qeyd etmişdik ki, K.Nəsirova melodiyanın inkişaf prinsiplərini,qanunlarını araşdıran bütün amillərin tədqiqat işlərini nəzərdən keçirir. Monoqrafiya 3 böyük fəsildən ibarətdir. Birinci fəsildə müəllif Q.Qarayev melodiyasının janr müxtəlifliyini aydın şəkildə göstərir. O, qeyd edir ki, bəstəkarın melodiyasının formalaşmasımda aşıq və muğam mənbələri, eləcə də mahnı və rəqs janrları mühüm rol oynamışdır. Müəllifin yazdığı kimi "milli melosun kompozisiya" normaları parlaq fərdiləşdirilmiş melodiyalara kristallaşdırılmışdır.

İkinci hissədə Könül xanım milli qeyri-milli intonasiya özəklərindən,

frazalarından yaranan melodiyaların təhlilindən söhbət açır. K.Nəsirovanın maraqlı fikirlərini sitat şəklində gətiririk:

a) melodikanın aparıcı rolu əsərin bədii fikrinin başlıca daşıyıcısı kimi çıxış edir.

b) Formaların həmahəngliliyi və təmkinliyin özinin ifadə prinsipi üzərində müəllif nəzarətinin nəticəsi kimi

c) Melodik leksikanın (və ən əvvəl milli) tipoloji xüsusiyyətlərinə dayaq kimi

Bu tezisləri sadalayan müəllif,hesab edir ki, sonuncusu ən çox inkişafa məruz qalmışdır.Və nəhayət, "Üçüncü" fəsildə,müəllif Q.Qarayev musiqisində melodiyanın bütün incəliklərini,özünə məxsusluğunu və yüksək novatorluğunı qeyd edir. Xüsusi olaraq, vurğulamalıyıq ki, kitabın II hissəsində ilk dəfə musiqişünaslıqda Q.Qarayevin yaradıcılığında "instrumental melodiya" termini işlənilir.

III hissədə isə müəllif melodiyaya məxsus olan bütün inkişaf prinsiplərini araşdırır, o cümlədən tədricən açılan, genişlənən melodiya ("мелодическое развертывание"), daha sonra təkrarlıq, variantlıq, sekvensiyalılıq, gəzişmə ("оневание") K.Nəsirova bu inkişaf prinsiplərini hamısına aid maraqlı misallar gətirir.

Misal üçün səh. 285-286 olduqca dəyərli və orijinal "Cədvəl" verilir. Bu "Cədvəl" üç bölməyə bölünür: birincisində melodiyaların növləri verilir: ikincisində müəllif melodiyanın əsasını təşkil edən formayaradıcı amili qeyd edir (основные приемы конструирования мелодий) və üçüncüsündə melodiyanın ümumi xarekteri qeyd olunur.

Gəzişmə ("оневание"): bir not ətrafında diatonik və xromatik səslərinm gəzişməsi nəticəsində alınır. İndi isə K.Nəsirovanın bununla əlaqədar onun fikrini oxucularımıza çatdıraq: Принцип оневания, на который в монодийной культуре возложены важнейщие задачи формирования ладофункциональных отношений, у К.Караева выступает больше как семантический знак национальной музыкальнщй речи, как элемент техники мелодического конструирования.

Dərin mənalı fikirlər müəllif tərəfindən Q.Qarayevin dodekafoniya üslubunda yazılan əsərlərinə aiddir.Bu baxımdan müəllif monoqrafiyasında aşağıdaki əsərlərə istinad edir: III simfoniya,Skripka və simfonik opkestrin müşaiyəti ilə yazılan konsert, 12 fuqalar və bir də səhnə əsərlərinə yazılmış musiqidə:" Antoniy və Kleopatra, "Kral Henrix IV" (Qeyd olunmuş əsərlərin fraqmentlərində dodekafoniya öz əksini tapır). Xüsusi olaraq müəllif iki tipli seriya texnikasını qeyd edir:"

Həmçinin, "Üçünci simfoniyanın " I hissəsi,Skripka və simfonik orkestrin müşayiəti konsertin II hissəsi Bütün çəkilən əsərlərə aıd misallar verilir. Dodekafoniya vasitəsilə Q.Qarayev olduqca parlaq, canlı və ifadəli obraz

yaradır və dinləyicinin yaddaşına bu mövzü (melodiya) həkk olunur.Bildiyimiz kimi ,Q.Qarayevin dram əsərlərinə yazdığı musiqinin klavirləri və yaxud partituraları Leninqradın (indiki Sankt Peterburq) və Moskvanın arxivlərindədir. Konül xanım bu notları olduqca çətinliklə əldə etmiş.Bir neçə dəfə bu şəhərlərə ehzamiyyətə göndərilmişdir.İndiki zamanda K.Nəsirovanın "Мелодика Кара Караева" kitabı əlavələrlə yenidən çap olunub və mənə icazə veriblər "kontrol" nüsxəsini baxmağa. Biz isə məqaləni yazarkən, sitatları 2000-cı ildə çap olunduğu kitaba əsaslanmışıq. Nəticədə demək istərdim ki, Könül xanımın tədqiqat işi həm professor-müəllim heyəti və həmçinin tələbələrimiz, o cümlədən doktorantlarımız üçün böyük hədiyyədir. Bu məqaləni mən Könül xanımın yubileyinə həsr edirəm. Olduqca təmiz qəlbli, xeyirxah, səmimi, mehriban və sadə şəxsiyyətdir. Hamıya onun qəlbi açıqdır.Gözəl ailə sahibidir. Bu qadın gecə-gündüz çalışir, yeni kitablar, məqalələr, metodik tövsiyyələr çap edir. O, bizim üçün nümunədir! – Məhz bu keyfiyyətlərə görə bizim kollektiv başda rektorat olmaqla onu yekdilliklə müsiqi nəzəriyyəsi kafedrasının müdüri seçdik.Məqaləni Qara Qarayevin sözləri ilə bitirmək istəyirəm: " Əgər insan öz dövrünün amalları və duyğuları ilə yaşayırsa, həm də o həmin amala və duyğulara dövrün tələblərinə cavab verən müvafiq, dərin forma tapırsa, bu novatorluqdur "Eləcə də bizim yubiliyarımız "dövrün tələblərinə cavab verən" şəxsiyyətdir. Dövrün tələblərinə aid olan kitablar, maraqlı tədqiqat işləri yaradır. Təmız və cavan qəlbli kolleqamıza uzun və mənalı ömür, möhkəm can sağlığı arzu edirəm.

ƏDƏBİYYAT

Кёнуль Насирова. Мелодика Кара Караева. Баку: «Шерг-Гярб», 2000, 332 с.

Məqalənin redaksiyaya daxil olma tarixi: 20.05.2018
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 28.06.2018
Məqalənin çapa qəbul olunma tarixi: 05.07.2018
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə elmlər doktoru, professor Nailə Rəhimbəyli
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.